# Nəsihətlərim

*Gəlininə, oğluna hörmət edənlər, özləri hörmətə layiqdirlər.

*Ananı oğul-qız hörmətli etdiyi kimi, ərə, qohumlara hörmət də gəlini hörmətli edər.

*Həmişə hörmətli olmaq üçün elin hörmətini qazanmaq lazımdır.

*Ata-ana payı kəsik olanın Allah payını kəsməz.

*Yaxşı insan yaxşılığı fikirləşmədən edir. Yaman insan yamanlığı yüz hiylə qurub edir.

*Pis əməl sahibi olanlar fikrini gizli saxlar.

*Ərinə görə hörmət edilən qadını el xoşbəxt sayar.

Ər qeyrətli arvadı olan kişiyə isə el hörmət edər.

*Yaxşı insan kasıb ola,
Eyləməyə pay tapar.
Yamanlara yüz yaxşı ol,
Danışmağa söz tapar.

*Dövran indi tərsinədir,
Oğlanı qız qaçırdır.
Xəsislər az yesin deyə,
Qonağı tez yatırdır.

*Qorx, a bala, qorx
qorxmazdan,
Həyasızdan,
əxlaqsızdan.
Abrını sən abırsızdan,
Özünü qoru yalandan.

*Düz hirslənsə
tərslik edər,
Tərs sözünü üzə deyər.
Sakit başla düşünəndə,
Düzgün ölçü-biçi edər.

*Düz insan
ipəktək olar,
Dolaşsa, çətin açılar.

*Qoçaq gəlin döyülməz, ağıllı qadın söyülməz.

*Ata-ana məsləhəti ilə ailə quranlar ağ günlü, xoş dövranlı olar.

*Kim qazana bilərsə
elində hörmət,
Budur ən qiymətli
tükənməz dövlət.
Nə qədər aparsa
başqa cahana,
Yetər nəsli üçün
bu cahanda da.

*Doğulduğu ailəni
sevməyən nakəs,
Qurduğu ailənin
qədrini bilməz.

**Sevinc Mələk**
*Tovuz*